# Azərbaycan Yazıçılar Birliyi Mətbuat xidmətindən

**Artıq məlumat verildiyi kimi, Azərbaycan Yazıçılar Birliyi katibliyinin qərarıyla Birlik sədrinin müşaviri Sayman Aruz müşavir vəzifəsində qalmaqla və maaşı saxlanmaqla ictimai əsaslarla tutduğu ikinci vəzifəsindən azad edilmişdir və bu vəzifəyə o taylı-bu taylı ədəbiyyatımızda böyük nüfuz sahibi, xalq şairi Sabir Rüstəmxanlı təyin olunmuşdur.**

**Yazıçılar Birliyinin daxili işi olan bu məsələ hələ 2007-ci ildə Birliyin nizamnaməsini kobud şəkildə pozduğu üçün təşkilatımızdan çıxarılmış Mübariz Məsimoğlunu bərk qəzəbləndirmişdir. Onun Sayman Aruzu hansı səbəblərdən "müdafiə etməsi" - öz işidir. Amma bu girəvədən istifadə edərək Azərbaycan ədəbiyyatının klassikləri haqqında təhqiramiz ifadələr işlətməsi yolverilməzdir.**

**Əsas da odur ki, Birlikdən çıxarılmasından azı iyirmi il keçdiyinə görə bu hadisəni unutmuş, ya bu barədə heç eşitməmiş adamlara yalan məlumat sırıyır. Guya Anar onu Birlikdən Süleyman Rüstəm, Rəsul Rza və Nigar Rəfibəyli haqqında tənqidi yazılarına görə çıxarıb. Ağ yalandır. Mübariz Məsimoğlunun dediyi yazıçılar barədə haçan, harda və nə yazdığından (əgər doğrudan da yazıbsa!) xəbərimiz yoxdur. Birlikdən isə Mübariz Məsimoğlu qocaman xalq şairi Balaş Azəroğluna qarşı ədəbi dələduzluq etdiyinə görə Katibliyin yekdil qərarıyla çıxarıldı.**

**Buyurun, bu da rəhmətlik Balaş müəllimin qəzetdə dərc olunmuş yalana qarşı acı fəryadı:**

## Bu mənə qarşı çirkin təxribatdır

Arif İbrahimov uzun müddət Azərbaycan Yazıçılar Birliyində mənimlə bir yerdə çalışıb. Mən onu öz övladım hesab etmişəm. Onun formalaşması üçün zəhmətimi əsirgəməmişəm. Doğrusu, indi Arif İbrahimovun belə ləyaqətsiz işlərə qurşanması məni çox təəssüfləndirir. Onun təsisçisi olduğu "Yeni nəfəs" qəzetində Mübariz Məsimoğlunun guya ki, mənimlə müsahibəsiylə tanış olanda dəhşətə gəldim. O gecə gözümə yuxu getmədi. Yaşımın bu çağında və səhhətimin bu vəziyyətində ən qəddar düşmən də mənə qarşı belə alçaq hərəkət edə bilməzdi. Bu müsahibədə mənim adımdan deyilən bir sözün də mənə heç bir dəxli yoxdur. Mən onların heç birini deməmişəm. Deyə də bilməzdim, çünki qəzet səhifələrində mənim dilimdən söylənən fikirlər mənim ömrüm boyu dediyim, yazdığım sözlərlə, illərin sınağından keçmiş əqidələrimlə, insani, dostluq münasibətlərimlə daban-dabana ziddir. Mübariz mənim adımdan Rəsul Rza və Nigar xanım haqqında ən çirkin böhtanlara əl atır. Guya ki, mən Rəsul Rzanın Cənub mövzusunda şeirlər yazmadığını iddia etmişəm. Məgər mən bilmirəmmi ki, Azərbaycan ədəbiyyatında Cənub mövzusunda yazılan ilk əsərlərdən biri Rəsul Rzanın hələ qırxıncı illərdə qələmə aldığı "Hilal" poemasıdır? Məgər mən bilmirəmmi ki, Rəsul Rza bu mövzuda "Ərk qalası" kimi klassik şeirin müəllifidir? Məgər mənim Rəsul Rzanın yanıqlı bir dillə yazdığı "Gözəl dost" oçerkindən, "Təbrizim-mənsizim" deyən böyük şairin Təbrizə həsr olunmuş neçə-neçə gözəl şeirindən xəbərim yoxdur? Rəsul Rzanın Təbrizə həsr olunmuş şeirindən təsirlənən mərhum Mədinə xanım vaxtilə ona səmimi bir şeir ithaf etmişdi. Mənim də ustad Rəsul Rza haqqında bir neçə şeirim və bir neçə məqaləm var. Məqalələrimin birində Rəsul Rzanın Cənubi Azərbaycan Milli azadlıq hərəkatına verdiyi töhfələrdən söz açıram. Bu, həm onun bu mövzuda yazdığı şeirləri, oçerkləri, məqalələri, həm redaktor olduğu və Cənub üçün ərəb əlifbasıyla nəşr olunan "Azərbaycan" jurnalındakı fəaliyyəti, həm də Kino naziri kimi "Arazın o tayında" filminin çəkilişinə rəhbərlik etməsidir. Bunları nankorcasına danmaq və unutmaq olarmı? Mübariz Məsimoğlu isə ürəyinin xıltını mənim adımdan istifadə edərək boşaltmağa çalışır.

Mədinə xanımla mən həmişə Rəsul Rza ailəsiylə mehriban münasibətdə olmuşuq, onlardan yalnız diqqət və qayğı görmüşük. Əgər kimsə bizim ailələri müqayisə edirsə, biz həmişə hər bir əsl azərbaycanlı üçün müqəddəs olan bu ailəylə yaxınlığımızdan iftixar hissi duymuşuq. Bu ailənin layiqli övladı Anarla da bizi həmişə qarşılıqlı hörmət və rəğbət duyğuları bağlayıb. Anar mənim yubileyimlə bağlı "O taylı-bu taylı şeirimizin ağsaqqalı" adlı məqalə yazmışdı. Dəfələrlə demişəm ki, Mirzə İbrahimovun mənim barəmdə yazdığı məqaləylə bir sırada Anarın məqaləsi də haqqımda yazılan ən dəyərli yazıdır. Mən Anarın yazısını kitablarımdan birinə Ön söz kimi daxil etmişəm.

Yazıçılar İttifaqının katibliyindən getməyim mənim öz istəyimlə oldu, bundan sonra Anarın təklifiylə Birlikdə məsləhətçi kimi qaldım. Yazıçılar təşkilatında, başda sədr olmaqla, hamı mənə böyük hörmətlə yanaşır. Odur ki, Mübariz Məsimoğlunun mənim adımdan uydurduğu iftiraların nə mənimlə, nə həqiqətlə, nə vicdanla heç bir əlaqəsi yoxdur.

Arif İbrahimova da, onun əlinin altında işləyənlərə də nə qədər gec deyil, belə iyrənc üsullardan əl çəkmələrini məsləhət edərdim. Mənim 86 yaşım var, şah rejimində də, sovet rejimində də yaşayıb-yaratmışam. Amma həyatımda ilk dəfə mənə qarşı belə çirkin təxribatla, belə həyasız yalanla rastlaşıram. Amma onu da bilirəm ki, belə yalanların, böhtanların, təxribatların ömrü uzun olmur, tez unudulub gedirlər. Olsa-olsa, yalnız onları uyduranların tərcümeyi-hallarında qara ləkə kimi qalırlar.

**Balaş AZƏROĞLU**
*Xalq şairi*
*20 noyabr*

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinə qarşı belə cahil hücumlara ən tutarlı cavab unudulmaz Ulu Öndər Heydər Əliyevin dediyi sözlərdir:

"Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza kimi böyük şairlərə, onların yaradıcılığında bugünkü günə uyğun olmayan hansısa nüansları tapıb irad tutmaq, hesab edirəm ki, mənəviyyatsızlıqdır. Belə adamların özləri xalq, millət, ölkə üçün heç bir şey etməyiblər. Əgər bizim xalq dili ilə desək, onlar nə Səməd Vurğunun, nə Rəsul Rzanın, nə Süleyman Rüstəmin dırnağı qədər də ola bilməzlər".

1998-ci il 26 martda Süleyman Rüstəmin 90 illiyinə həsr olunmuş təntənəli gecədə çıxışından.